# Nic qəsəbəsində Milad bayramı

Yanvar ayının 7-si bütün dünyada pravoslav xristianları tərəfindən İsa peyğəmbərin mövludu günü, yəni, Milad bayramı kimi qeyd olunur. Qəbələ rayonunun Nic qəsəbəsinin sakinləri olan udilər də bu günü özünəməxsus şəkildə qeyd edirlər.

Keçmiş sovetlər dövründə udilərə öz milli bayramlarını qeyd etmək qadağan olunsa da, ölkəmiz müstəqillik əldə etdikdən sonra onlar etnik xalq olaraq öz bayramlarını hər il qeyd edirlər.

Hər il olduğu kimi bu ildə ənənəyə sadiq qalaraq, qəsəbədə yaşayan udilər yanvarın 7-də "Cotari" alban kilsəsində təşkil olunan bayram mərasi-



minə toplaşıblar. Mərasimdə Albanudi icmasının rəhbəri Robert Mobili, kilsənin keşişi Rafik Danakari və icmanın üzvləri çıxış edərək, Milad bayramının mahiyyətindən, tolerantlıq diyarı olan Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışıblar. Çıxış edənlər Nic qəsəbəsinə göstərdikləri diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirib, bayram münasibətilə təbriklər səsləndiriblər.

Tədbirdə çıxış edən udilər rayonda onlara qarşı heç bir ayrı-seçkiliyin olmadığını vurğulayıblar. Bildirilib ki, Nic qəsəbəsində 3 kilsə və 2 məscid var. "Cotari" alban kilsəsində, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Fond tərəfindən "Müqəddəs Məryəm Ana" (Bulun) məbədində 2020-ci ildə aparılan təmir-bərpa işləri ölkədə tolerantlıq mühitinin olduğuna gözəl nümunədir.

Çıxışlardan sonra kilsədə şamlar yandırılıb, dualar oxunub, bayram süfrəsi açılıb və Vətən müharibəsi qazilərinə bayram münasibətilə hədiyyələr təqdim edilib.

# Yaddaşlarda yaşayan dəyərli alim, əsl ziyalı

Azərbaycan və udi dillərinin qarşılıqlı əlaqələrinə, Qafqaz Albaniyasının mədəniyyət tarixinə böyük töhfələr vermiş filologiya elmləri doktoru, professor Voroşil Levonoviçin anadan olmasının 90 ili tamam olur.

Milliyətcə udi əsilli olan Qoroşil 1932-ci il yanvarın 9-da Qəbələ (keçmiş Qutqaşen) rayonunun Nic kəndində anadan olmuşdur. Orta təhsilini Nicdə almış Q. Voroşil 1950-ci ildə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuş, 1955-ci ildə təhsilini başa vuraraq Qəbələdə çıxan "Bolşevik mübarizi" rayon qəzetində çalışmışdır. Gənc yaşlarından onun respublikamızın bir sıra qəzet və jurnallarında xeyli sayda məqalə və felyetonları dərc edilmişdir.

Voroşil müəllim bir müddət "Siyəzən işçisi" qəzetində məsul katib, daha sonra Azərbaycan SSR Elmlər Akademiyasında nəşriyyat redaktoru vəzifələrində çalışmışdır.

1960-cı ilin əvvəllərində o, Akademiyanın Nəsimi adına Dilçilik İnstitutuna işə qəbul olunmuşdur. Əmək fəaliyyətinə başladığı elə ilk günlərdən dilçilik məsələləri, xüsusən də respublikamızın azsaylı xalqlarından sayılan udilərin dili, Qafqaz albanlarının əlifbası, o cümlədən Qafqaz albanlarının erkən orta əsr epiqrafik yazılı abidələri ilə maraqlanmağa başlamışdır.

Q. Voroşil doğulub boya-başa çatdığı Nic kəndində, Oğuz rayonunda yaşayan udilərin dilini müqayisəli şəkildə öyrənmiş, tədqiq etmiş, səmərəli ümumiləşdirmələr aparmış, dil materialları vasitəsilə tarixi hadisələri öyrənməyə çalışmışdı. O, qədim alban tayfaları haqqında daha ətraflı məlumat almaq üçün keçmiş SSRİ-nin bir çox şəhərlərində - Moskva, Leninqrad, Nalçik, Qrozni, Yerevan və Tbilisidəki arxivlərdə elmi araşdırmalar aparmışdır.

Onun 1960-ci illərdə "Udi dilində qohumluq terminləri", "Qədim Arvan əlifbası və udi dili haqqında", "Azərbaycan və udi dillərinin qarşılıqlı əlaqələrinə dair" və s. kimi elmi məqalələri Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərlərində dərc edilmişdi. "Alban yazılarının tarixindən" adlı irihəcmli məqaləsi isə Parisdə fransız dilində dərc olunmuşdur.

Q. Voroşilin namizədlik dissertasiyası "Udi dilinin Nic dialektinin fonetik və morfoloji xüsusiyyətləri" mövzusunda idi. O, bu mövzu üzərində səmərəli axtarışlar apararaq, 1966-cı ildə Tbilisi Dövlət Universitetində namizədlik işini uğurla müdafiə etmişdir.

Dilçiliyimizdə az işlənmiş, həllini gözləyən sahələrdən biri də Azərbaycan dilinin qohum olmayan dillərlə əlaqəsi problemidir. Q. Voroşilin filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün "Azərbaycan və udi dillərinin qarşılıqlı əlaqəsi" mövzusunda yazdığı doktorluq dissertasiyası məhz bu aktual məsələyə həsr olunmuşdur ki, görkəmli alim onu da 1973-cü ildə uğurla müdafiə etmişdir.

Onun 1974-cü ildə "Elm" nəşriyyatı tərəfindən çap olunmuş altı minə yaxın söz, minə yaxın söz birləşməsi, o cümlədən frazeoloji və idiomatik ifadəni əhatə edən "Udincə - azərbaycanca-rusca lüğət"i də dillərin qarşılıqlı əlaqəsini öyrənmək baxımından çox əhəmiyyətli və əvəzedilməzdir.

Q. Voroşilin son əsəri Vaqif Aslanovla birgə yazdığı " İssledovanie po istorii azerbaydjanskoqo əzıka dopisğmennoqo perioda" (Baku," Glm", 1986 q.) monoqrafiyasıdır.

Məlumat üçün onu da qeyd edək ki, Q. Voroşilin yazdığı elmi məqalələr, kitablar, monoqrafiyalar sovet dönəminin məhsulu olsa da onlar öz aktuallığını, elmi yeniliyini bu gün də qoruyub saxlamaqdadır.

O, ali məktəblərin filologiya fakültələrində "Ümumi dilçilik" fənnindən dərs demiş və ardıcıl olaraq bir neçə il də Dövlət İmtahan Komissiyasına sədrlik etmişdir.

Dilçi alim 1986-cı il oktyabrın 11-də yaradıcılığının çiçəkləndiyi bir vaxtda - 54 yaşında dünyasını dəyişmişdir.

1992-ci il yanvarın 11-də tanınmış dilçi alimin Nic qəsəbəsində 60 illik yubileyi qeyd olunmuşdur.

Voroşil müəllim respublikamızın dilçi alimləri, ziyalıları arasında sayılıb-seçilən, habelə insanlığın çox sayda müsbət cəhətlərini özündə yaşadan alimlərdən idi. İlk baxışdan sakit görünsə də böyük ürəyi, sadəliyi, insanpərvərliyi vardı. O, həmişə Qəbələli olmağı ilə fəxr edərdi. Əbəs yerə deyildir ki, o, hələ gənclik illərindən yazdığı məqalələrini də "Voroşil Qutqaşenli" imzası ilə dərc etdirərdi.

**Akif HACIYEV,**
**Azərbaycan Memarlıq və İnşaat Universitetinin Azərbaycan dili və pedaqogika kafedrasının dosenti.**

## *Qəbələ Dövlət Tarix-Bədii Qoruğu*

# Qala bürcləri

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeçiliyində fəaliyyət göstərən Qəbələ Dövlət Tarix-Bədii Qoruğu Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə 27 mart 1976-cı ildə yaradılmışdır.

Qəbələ rayon mərkəzindən 24 km cənub-qərbdə indiki Çuxur Qəbələ və Tövlə kəndləri ərazisində yerləşən Qoruqda Qədim Qəbələ şəhərinin qalıqları yerləşir.

Qəbələ eramızdan əvvəl IV-III əsrlərdə yaranmış Qafqaz Albaniyasının paytaxtı olmuşdur. Qəbələ haqqında ilk yazılı məlumat eramızın I əsrində yaşamış Roma alimi Böyük Plininin "Təbii tarix" əsərində Kabalaka (Cabalaca) kimi qeyd olunmuşdur. Eramızın II əsrində yaşamış Yunan alimi Klavdi Ptolomey isə Qəbələni Xabala kimi qeyd etmişdir.

Antik və Orta Əsrlər dövrünə aid Qəbələ şəhəri qalıqları geniş ərazini əhatə etməklə, bunlardan 3 mühüm tarixi-arxeoloji hissə Qəbələ Dövlət Tarix-Bədii Qoruğu ərazisinə daxildir.



1. Antik Şəhər ərazisi (el arasında Çaqqallı, Güllü tala kimi tanınır): Ərazisi 50 ha-dır. ərazi Qaraçay və Qoçalan çayları arasında yerləşir. E.ə. IV əsrdən - eramızın I əsrin II yarısınadək olan dövrdə Qəbələnin əsas mərkəzi hesab edilirdi. Son illər Prof. İlyas Babayevin rəhbərliyi ilə aparılmış tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Antik şəhər yeri Erkən Dəmir dövrü yaşayış yeri üzərində salınmışdır.

I əsrin II yarısında şimaldan Alan tayfaların hücumları nəticəsində paytaxt Antik şəhər ərazisindən strateji baxımdan əlverişli mövqeyə malik olan Səlbir və Qala adlanan ərazilərə köçürülmüşdür. Ərazi şərqdən Covurlu, qərbdən Qaraçay və şimaldan dərin dərə ilə əhatələnən yüksək bir yaylada yerləşir.

2. Səlbir ərazisi: Ərazisi 13 hadır. Qaraçay və Covurlu çayları arasında hündür yayladan ibarətdir. Səlbir adlanan ərazidə yaşayış I əsrin II yarısından XI əsrin sonuna qədər olan dövrü əhatə etmişdir.

3. Qala ərazisi: Ərazisi 12 hadır. Qaraçay və Covurlu çayları arasında hündür yayladan ibarətdir. Qala adlanan tarixi ərazidə isə I əsrin II yarısından XVIII əsrədək yaşayış davam etmişdir.

Səlbir və Qala əraziləri bir yayladan ibarət olmaqla, eramızın XI əsrində xəndək vasitəsilə iki hissəyə ayrılmışdır.

Qəbələ şəhərinin Qala adlanan ərazisində ilkin arxeoloji təqiqatlar XX əsrin 20-ci illərində görkəmli arxeoloq D. B. Şərifovun tərəfindən aparılıb. 50-ci illərdən başlayaraq orada ardıcıl və sistemli işləyən kompleks ekspedisiyalar fəaliyyət göstərir. Təcrübəli arxeoloqlar olan Saleh Qazıyev və Ö.Ş.İsmizadə tərəfindən Qalanın mərkəzində və cənub şərq hissəsində geniş ərazi öyrənilib. 70-ci illərdən etibarən orta əsr mədəniyyətinin tədqiqi üzrə tanınmış arxeoloq Q. M. Əhmədovun rəhbərliyi ilə tədqiqatlar daha geniş miqyasda davam etdirilib.

70-80-ci illərdə arxeoloq Qafar Cəbiyevin rəhbərliyi ilə Qala ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Son Orta əsr şəhər probleminin tədqiqi prioritet istiqamət olmuşdur. 70-ci illərdə arxeoloq F.V.Qədirov tərəfindən Qalanın cənub müdafiə divarları tədqiq olunmuş, nəticədə Qala qapısı önündə I-III əsrlərə aid çoxsaylı küp qəbirləri aşkar edilmişdir.

2008-2009-cu, habelə 2011-ci, 2013-cü və 2016-cı illərdə SEBA (Seul-Bakı) Azərbaycan - Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının maliyyə və təşkilatı dəstəyi ilə tərəfimizdən Qala ərazisində bir neçə yerdə qazıntı aparılıb. Şəhərin cənub qapısına yaxın ərazidə öyrənilən 1600m$^2$ sahədə X-XVII əsrlərə aid çoxsaylı yaşayış evləri, yardımçı binalar, hamam otağının qalıqları, dulus kürələri, digər istehsalat qalıqları, küçə və yollar, habelə zəngin və rəngarəng çeşidli digər maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır. Həmin tapıntılar Qəbələdə şəhər həyatının müxtəlif sahələrinin tədqiqi, digər şəhərlər və ölkələrlə ticarət və mədəni əlaqələri, əhalinin məişəti, məşğuliyyəti, mədəni səviyyəsi və inancları barədə fikir söyləməyə əsas verir.

2009-cu ildə Qalanın şimal-qərb tərəfində Qala divarlarının öyrənilməsi məqsədi ilə aparılan kiçik miqyaslı qazıntılar nəticəsində saxsı borulardan ibarət çoxşaxəli su xətti şəbəkəsi, gözətçi məntəqəsi, Qala qapısının açarı və XII əsrə aid üzərində döyüşçü-gözətçi təsviri olduğu güman edilən şirli kasa tapılmışdır.

Qəbələnin qala divarları özünün möhtəşəmliyi ilə Azərbaycanın digər Orta əsr şəhərlərinin müdafiə sistemindən xeyli fərqlənir. Qala divarları hissəsinin müdafiə divarları elə ilk baxışdan möhtəşəmliyi ilə diqqəti cəlb edir. Bu günə qədər özünün ilkin görkəmini saxlamış olan cənub divarları xüsusi ilə əzəmətlidir. Yeri gəlmişkən deyək ki, Qalanın cənub divarında 4 bürc qalıb. Onların hamısı yarımdairəvi formadadır. Hündürlüyü 10-14 m, diametri 6-8 m, divarlarının qalınlığı 4 m olan qala bürclərində 70 cərgəyədək bişmiş kərpicdən istifadə olunub.

Qalanın əsas giriş qapısı cənub tərəfdəndir. Qapı yerinin sağında və solunda olan nəhəng bürclər demək olar ki, tam salamat vəziyyətdə qalmaqdadır. Yalnız bəzi yerlərdə bünövrə hissəsini möhkəmləndirmək məqsədi ilə ötən əsrin ortalarında müəyyən bərpa işləri aparılmışdır. Qala divarlarının bünövrə hissəsi dördkünc formada yonulmuş iri mədən daşlarından, yuxarı hissəsi isə müxtəlif ölçülü bişmiş kərpiclərdən istifadə olunmaqla hörülüb. Tikintidə ölçülərinə görə fərqlənən 15 növ kərpicdən istifadə olunub. Maraqlı burasıdır ki, qalanı tikən ustalar bişmiş kərpiclərin ölçü və düzülüş müxtəlifliyindən məharətlə istifadə etməklə sözün əsl mənasında nadir memarlıq nümunəsi yarada bilmişlər.

**Mirazim SƏMƏDOV,**
**Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun elmi işçisi.**

*(Ardı növbəti sayımızda).*